HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

15 noyabr 2016-cı il
№021 (35)

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / “იენი იოლი” საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci tarixdən nəşr olunur

## LEVAN İZORİYA: TÜRKİYƏ, AZƏRBAYCAN VƏ GÜRCÜSTAN ARASINDA ÜÇTƏRƏFLİ ƏMƏKDAŞLIQ İNKİŞAF EDİR




Gürcüstan Müdafiə Naziri Levan İzoriya “100 gün və müdafiə sahəsində strateji inkişaf” adlı hesabatla çıxış edib.

Tədbirdə Gürcüstanın Baş Naziri Georgi Kvirikaşvili, Daxili İşlər Naziri Georgi Mqebrişvili, Azərbaycan və Türkiyə səfirliklərinin rəsmi nümayəndələri, hərbi attaşelər və beynəlxalq qurumların nümayəndələri iştirak ediblər.

L. İzoriya Gürcüstan Silahlı Qüvvələrində həqiqi hərbi xidmət keçməyə çağırışın qüvvədə qalması, lakin çağırışın yeni formada həyata keçiriləcəyi barədə məlumat verib.

Gürcüstanın Müdafiə Naziri mətbuat üçün bəyanatında Azərbaycan və Gürcüstan müdafiə nazirlikləri arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu vurğulayıb: “Türkiyə, Azərbaycan və Gürcüstan arasında üçtərəfli format çərçivəsində əməkdaşlıq planauyğun şəkildə inkişaf edir. Biz regionda təhlükəsizliyin yüksək səviyyədə olmasını arzulayırıq. Bunun üçün biz üçtərəfli formatda görüşlərimizi davam etdiririk və münasibətlərimizi möhkəmləndiririk”.

## PREZİDENT YENİ PARLAMENTİ SEÇKİ SİSTEMİNDƏ DƏYİŞİKLİK ETMƏYƏ ÇAĞIRIR



Gürcüstan Prezidenti Georgi Marqvelaşvili düşünür ki, yeni parlament ilk növbədə ölkənin seçki sistemini dəyişdirmək məsələsinə baxmalıdır. Prezidentin bu mövqeyini onun mətbuat katibi Eka Mişveladze səsləndirib.

Prezidentin mətbuat katibi bəyan edib: “Seçki sisteminin dəyişdirilməsi ilə bağlı olaraq çox böyük diskussiyalar gedir, bu işdə şəxsən prezident mühüm rol oynayır və o, bu sistemin dəyişdirilməsini çox istəyir.

Biz yeni parlamentin müzakirə etməli olduğu ilk məsələlərdən birinin seçki sisteminin dəyişdirlməsi olduğunu düşünürük. O cümlədən də, bu sistemin dəyişməsinin konkret müddətdə həyata keçirilməsinin müəlliflərindən biri olan “Gürcü arzusu” partiyalar arasında əldə olunmuş razılaşmaları və vədləri yerinə yetirməlidir”.

## GÜRCÜSTANIN YENİ HÖKUMƏTİNİN TƏRKİBİ NOYABRIN 19-DA ELAN EDİLƏCƏK

Gürcüstanin yeni hökumətinin tərkibi noyabrin 19-da məlum olacaq. Bu barədə Baş Nazirin birinci müavini, İqtisadiyyat Naziri Dmitri Kumsişvili məlumat verib.

Georgi Kvirikaşvilinin bir neçə gün sonra açıqlamaq niyyətində olduğu Gürcüstanın yeni hökumətində əsas vəzifələrin bölüşdürülməsinin yekun planı “Gürcü arzusu”nda aparılan məsləhətləşmələrin nəticəsində tərtib olunub.

Kumsişvili bildirib: “Baş nazir kimin vəzifədə qalıb, qalmayacağı barədə bəyan edəcək. Gürcüstanda gec-tez hər şey bəlli olur və bu da gizli qalmayacaq. Noyabrın 19-dək cəmi bir neçə gün qalıb. Mən də məsləhətləşmələrə qoşulmuşam və Baş Nazirin təqdim etdiyi kabinetə tərəfdaram”.



Yeni hökumət təsdiqlənmək üçün yeni parlamentə təqdim olunacaq. Fəaliyyətdə olan hökumət buna qədər öz vəzifəsini icra edəcək.

## BAŞ NAZİR MİLLİ VALYUTA KURSUNUN TƏRƏDDÜDÜNÜ ÖLKƏDƏ GEDƏN MÜSBƏT PROSESLƏRLƏ ƏLAQƏLƏNDİRİB



Gürcüstanın Baş Naziri Georgi Kvirikaşvilinin fikrincə, milli valyuta kursunun tərəddüdü ölkədəki müsbət proseslərlə şərtlənir.

Baş Nazir əmindir ki, bunun səbəbi istehlakın artmasıdır, “lakin artıq yaxşılaşma prosesi gedir və bu proses mütləq dönməz olacaq”.

Baş Nazir vurğulayıb: “Kəmiyyət baxımından idxal artsa da, pul ekvivalenti olaraq ixrac idxala çata bilmir, çünki əsas ixrac bazarlarında qiymətlərin düşməsi müşahidə olunur. Məhz nə baş verir, buna görə baş verir.

Biz artıq idxalı təshih etməyə başlamışıq, kurs mütləq sabitləşəcək. Gələcək bir neçə ay ərzində, məntiqə görə, lari mütləq möhkəmlənməlidir. Bundan başqa biz Milli Bankla birlikdə larinin möhkəmlənməsi və sabitləşməsi məqsədilə müəyyən addımlar atmağı planlaşdırırıq”.

MÜƏLLİM ADI ƏTRAFINDA GƏZİŞMƏLƏR 2

CƏNUBİ QAFQAZDAKI ETNİK MÜNAQİŞƏLƏRİN HƏLL PRİNSİPLƏRİ NECƏ OLMALIDIR? 3

ABŞ-IN DONALD TRAMP SEÇİMİ VƏ DÜNYANIN GƏLƏCƏYİ 4

TRAMP ABŞ SİYASƏTİNİN ANA XƏTTİNİ DƏYİŞƏCƏKMİ? 5

DİL ÜSTÜNDƏ DİL BİTİRMƏK 6

ALIN YAZISINI ALIN TƏRİ İLƏ SİLMƏK... 7

7 YAŞLI TÜRK AKTRİSASININ AYLIQ GƏLİRİ 20 MİNDİR 8

## NATO-GÜRCÜSTAN TƏLİMLƏRİ DAVAM EDİR

Vaziani hərbi bazasında, NATO və Gürcüstan birgə təlim və qiymətləndirmə Mərkəzinin ərazisində “NATO-Gürcüstan 2016” təlimlərinə start verilib. Gürcüstan Müdafiə Nazirliyinin məlumatına görə, təlimlər noyabrın 20-dək davam edəcək.

“Geniş miqyaslı təlimlərdə NATO-nun 12-i üzvü və iki tərəfdaş ölkə iştirak edir. Təlimlərdə 250 hərbiçi iştirak edir. Birgə təlimlərin əsas məqsədi Gürcüstanın və NATO-nun hərbi qüvvələrinin qarşılıqlı uyğunlaşmasıdır” – Müdafiə Nazirliyinin nümayəndələri açılış mərasimində vurğulayıblar.

Müdafiə Nazirliyində bildiriblər ki, “NATO-Gürcüstan 2016” təlimləri sayca ikincidir, mövcud NATO-Gürcüstan (SNGP) tədbirlər paketi çərçivəsində keçirilir.

Gürcüstan və NATO arasında əməkdaşlıq 1994-cü ildə Gürcüstan “Sülh naminə tərəfdaşlıq” proqramının iştirakçısı olduğu vaxtdan başlayıb. “Qızılgül” inqilabından sonra Gürcüstan-NATO əməkdaşlığı daha da intensivləşib.

2008-ci ilin aprelində NATO-ya üzv ölkələrin başçılarının Buxrest sammitində alyansın standartlarına uyğunlaşmaq şərtilə gələcəkdə Gürcüstanın NATO-ya üzv ola bilməsi təsdiqlənmişdi. 2014-cü ilin 4-5 sentyabrında NATO-nun Uelsdə keçirilən sammitində Gürcüstanın alyansa üzvlük cəhdini dəstəkləyən tədbirlər paketi qəbul edilmişdi.



## MÜƏLLİM ADI ƏTRAFINDA GƏZİŞMƏLƏR

Afiq MUXTAROĞLU
*amuxtaroglu@mail.ru*

**Düzdür, yalan nə deyim, heç kim də bunu inkar edə bilməz, beş-on il qabaqla müqayisədə müəllimin maddi durumunda kəmiyyət baxımından müsbət dəyişikliklərin baş verməsini danmaq kişiyə yaraşan iş deyil. Düzdür, müəllimin də cibi iki-üç günlük də olsa pul tanıyır, bu beş günlük dünyada müəllim də özünü iki-üç gün beş kişidən biri sayır. Nədən ki, indiki dönəmdə maaş cədvəlinə qol çəkib pul almaq hər adama nəsib olmur. Sovetin böyrü yerdə qalandan bəri bəlkə də məktəb fasiləsiz işləyən nadir müəssisələrdəndir. Bunun da inkar edilməsi mümkün deyil. Və məktəbin bu fasiləsiz işləkliyi daim cəmiyyətin onu dördgözlə izləməsinə, onunla maraqlanmasına gətirib çıxarır. Bunun da yaxşı-yaman tərəflərinin olmasını bir ara yazılarımdan birinin gözünə qatmışdım.**

Bu gün Gürcüstanda 2 085 məktəb fəaliyyət göstərir və bu məktəblərdə 565 min şagirdin təhsil aldığını rəsmi mənbələrdən öyrənirik. O da bəllidir ki, 565 min şagirdin təlim-tərbiyəsi ilə 65 min pedaqoq məşğul olur. Sözarası onu da deməyi özümə borc bilirəm ki, qədim yunanlar uşaqlarını məktəbə aparıb gətirən ev qullarına pedaqoq adı vermişdilər, bu gün bu söz dünyada müəllimliyi özünə peşə edən milyonlarla adamın ümumi adına çevrilərək, özündə elm və təhsil verən anlamını ehtiva edir. Və buradaca ötəri də olsa deyək ki, dünyanın dörd bir yanında müəllimlərin cəmiyyətdəki yeri, mədəni səviyyəsi, iqtisadi durumu heç də eyni deyil. Bütün dünyada pedoqoq kimi tanınsalar da, bu şəxslərin hər ölkədə statusu fərqlidir. Təkcə pedaqoqlara münasibətdə deyil, ümumilikdə təhsilə, elmə, maarifə münasibətdə fərqlilik yetərincədir. "Yeni yol" olaraq biz müxtəlif dövlətlərdə müəllimin maddi və mənəvi durumu barədə bu və ya digər məlumatları – bir faydası olub, olmasa da – zaman-zaman oxucumuza çatdırmağa çalışmışıq.

Tez-tələsik onu da vurğulayım ki, baş nazirimizdən tutmuş məktəb işlərimizə baxan təhsil nazirimizəcən – səlahiyyət sahibləri öz dillərindən qaçırıblar ki, müəllimlərin maaşı yeni ildən, daha doğrusu 2017-ci ilin yanvarından artacaq. Və orta hesabla müəllimin məvacibi 800 lari olacaq. Bu xəbəri yeni eşidənlər bilirəm ünvanıma yüz yol alqış söyləyib, hələ üstəlik, səni xeyir xəbər olasan deyəcəklər. Orasını da bilməyinizdə fayda var ki, ölkəmizdə müəllimlər peşəkarlıq baxımından dörd kateqoriyaya bölünürlər və bunun da böyük əksəriyyəti dördüncü zümrəyə mənsub olanlardır. Praktik müəllim adlandırılan bu təbəqənin maaşının 800 lari olmayacağını deməyim bilirəm ki, qan qaraldıcı bir zaddır. Üstəgəl, milli valyutamızın hər keçən gün qan itirməsini, yəni dəyərdən düşməsini də nəzərə alsaq bu artımın bizim büdcəmizdəki payını sərf-nəzər etmək o qədər də çətin olmaya gərəki? Qulaqlara qurğuşun, qulağıma dəyən yeni xəbərlərdən biri də elektrik enerjisinin qiymətinin artması ilə bağlıdır. Hələ orasını da deyim ki, enerjinin qiymət artımı ilə bərabər, tarifin gün ərzində müxtəlif dərəcələrinin tətbiq olunması da gözlənilir. Və bu məqamda müəllimin birinin vermək istədiyi, amma abrındanmı, həyasındanmı səsləndirə bilmədiyi bir sualı vermədən keçə bilmirəm: Bunun nəyi maaş artımı oldu? Amma, sonra da adam ağıl edir ki, əməkhaqqına bu artım edilməsə müəllimlikdən başqa bir sənəti olmayan bir bölük insan nə edə bilər?

Əski çağlarda insanların bəzi peşə sahiblərinə bir az qeyri-adi gücə malik şəxs, bir az mistik örtüyə bürünmüş varlıq, bir az başqalarından fərqli sənət sahibi kimi baxmaları barədə tarixi qaynaqların yaddaşında yetərincə bilgilərə rast gəlməmiz mümkündür. Məsələn, dəmirçilər, dəyirmançılar, yazı yazan mirzələr bu qəbildən idilər. Onların arasında müəllimlərin adı da yox deyildi. Şagirdin müəlliminə – ustasına, ustadına münasibətindəki hörmət, sevgi, ruhi bağlılıq bəzən əndazəni aşırdı. Dədələrin "Ustadına kəm baxanın, gözlərinə qan damar" söyləməsi də bunu təsdiqləyir. Sözarası onu da deyim ki, "usta", "ustad" kimi sözlər öz türkcəmizin xalis "us" kökündəndir və zamanında "ağıl", "dərrakə" anlamında işlədilirdi. Əski türk yazılarında "uslanmaq" – "ağıllanmaq" kimi bir fellə də ifadə olunurdu.

**...Müəllim adının ucalığı elə bir məqam idi ki, nə hər yoldan ötən o məqama yüksələ bilmirdi, nə də həmin məqama yüksələni oradan endirmək mümkün deyildi. Mat qalmalı işdir ki, bu dediklərimi özüm təkzib etmək məcburiyyətindəyəm. Hər şey bir yana, bəlkə də məktəbin başına gətirilən bütün tərs dəyirmanlara, məktəb, müəllim adı ətrafında cərəyan edən naqisliklərə göz yummaq, fikir verməmək, hətta bəd ayaqda dözmək olardı. Amma nə gizlədim, məktəbin, müəllimin yüz illər, min illər ərzində qazandığı, canına hopdurduğu müqəddəsliyi itirməsi ilə barışmaq, onun sıradan biri olmasını görüb, qəbul etmək ən acı gerçəkdir...**

## QARDABANİDƏ XALQ BAYRAMI "QARDABNOBA 2016" QEYD EDİLİB

Noyabrın 5-də Qardabani şəhərində ənənəvi "Qardabnoba 2016" xalq bayramı təntənə ilə qeyd edilib. Tədbirlər saat 12-də müxtəlif növ idman sahələri üzrə yarışlarla başlayıb. Burada rayon gəncləri və yeniyetmələri bir-biri ilə gürcü güləşi, qol güləşi və nərd oyunlarında yarışıblar. Eyni zamanda marafon təşkil edilib və futbol çempionatı keçirilib.

Qaliblər müxtəlif hədiyyələrlə mükafatlandırılıblar. Qaliblərə diplomları və mükafatları Qardabani bələdiyyəsinin sədri Qoça Camarauli və sakrebulonun rəhbəri Vaja Qenqaşvili təqdim ediblər.

Saat 15-də isə bayram konsertinə start verilib.





Konsertdə Qardabani şəhər mədəniyyət mərkəzi nəzdində fəaliyyət göstərən "Betaniya"kişi folklor ansamblı, sənətçilər Mebo Nuçubidze, Natia Dumbadze, Liza Qenia, Marita Roxvadze və "Frani" qrupu iştirak ediblər.

Elə həmin gün Qardabaninin fəxri vətəndaşları seçilib və 12 orta məktəb şagirdi qızıl medallarla mükafatlandırılıb. Qardabani şəhər 3 saylı məktəbin şagirdləri Orxan Əliyev, Diana Həsənova və Ayşən İsmayılova da qızıl medal alanlar arasında olublar və onlara 200 larilik pul mükafatları da təqdim edilib.

Bayram tədbirləri Qardabani şəhərindəki 9 aprel bağında və ona yaxın ərazilərdə də keçirilib.

## TƏHSİL NAZİRİ MÜƏLLİMLƏRİN ƏMƏKHAQQININ İKİ DƏFƏ ARTACAĞINI BİR DAHA TƏSDİQLƏDİ

Təhsil və Elm Naziri Aleksandr Cecelava 2017-ci ilin yanvarından Gürcüstanda məktəb pedaqoqlarının əməkhaqqının 800 lariyədək artacağını bəyan edib.

Nazir deyib: "Vəd olunduğu kimi pedaqoqların əməkhaqqının artımı ölkənin gələn ilki büdcəsində əks olunacaq. Daha doğrusu, pedaqoqların əməkhaqqı gələn ildən orta hesabla 800 lariyə yaxın olacaq".

Pedaqoqların əməkhaqqı onların peşəkar inkişafından asılıdır.

Müəllimin peşəkar inkişaf sxemi hal-hazırda məktəb pedaqoqlarını dörd kateqoriyaya bölür. Bu bölgüyə əsasən, birinci pillədə pedaqoq praktiklər, ikinci pillədə baş müəllimlər, üçüncü pillədə aparıcı pedaqoqlar, dördüncü pillədə isə mentor müəllimlər dayanırlar.

## GÜRCÜSTANDA QLOBAL SAHİBKARLIQ FORUMU AÇILDI

Gürcüstan hökuməti sahibkarlığın həvəsləndirilməsi və gənclərin sahibkarlıq fəaliyyətinə qoşulmaları istiqamətində daha bir təşəbbüs də həyata keçirir.

Gürcüstanda 160 ölkənin iştirakı ilə Qlobal Sahibkarlıq Forumu fəaliyyətə başlayıb.

Texnoparkda Forumun açılış mərasimində Gürcüstanın Baş Naziri Georgi Kvirikaşvili və ABŞ səfiri Yan Kelli iştirak ediblər.

Baş Nazirin sözlərinə görə, Gürcüstan hökuməti ən müasir ideyaların inkişafına yardım etməlidir, çünki bu, ölkənin gələcəyi və iqtisadiyyatın struktur dəyişikliyi üçün böyük əhəmiyyətə malikdir.

Baş Nazir İnnovasiya və Texnologiya Agentliyinin də Qlobal Sahibkarlıq Forumuna yardım edəcəyinə inandığını bildirib.



Forumun açılışında 200-dən çox sahibkar iştirak edib.

Böyük miqyaslı beynəlxalq layihə ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) "İnkişaf üçün idarəetmə" layihəsinin və ABŞ səfirliyinin dəstəyilə həyata keçirilir.

## GÜRCÜSTANDA ÇAYLARIN ENERJİ POTENSİALININ DƏYƏRLƏNDİRİLMƏSİ ÜÇÜN ELEKTRON SİSTEM YARADILIB



Gürcüstanda çayların enerji potensialının dəyərləndirilməsi üçün elektron sistem yaradılıb (GİS).

GİS sisteminin bazasında çayların rəqəmsal xəritələri də yaradılıb, burada SES-lərin tikilməsi üçün perspektivli yerlər – koordinatlar, elektrik enerjisinin gücü, SES-lərin itikintisi üçün gərək olan sərmayə haqqında məlumatlar yerləşdirilib.

Gürcüstanda çayların enerji potensilının dəyərləndirilməsi üçün elektron sisteminin (GİS) yaradılması ilə bağlı memorandum 2013-cü ildə Gürcüstanın Ətraf Mühit və Təbii Ehtiyatların Mühafizəsi Nazirliyi, Energetika Nazirliyi və Norveç Su Ehtiyatları Direktorluğu tərəfindən imzalanmışdı.

Layihənin gerçəkləşdirilməsi üçün Norveç hökuməti Gürcüstana 1,8 milyon avro dəyərində qrant ayırmışdı.

Gürcüstan Energetika Nazirliyinin bəynatına görə, hazırlanan elektron sistem sərmayəçilər üçün lazım olan layihəni seçmək üçün çox faydalı olacaq.

## CƏNUBİ QAFQAZDAKI ETNİK MÜNAQİŞƏLƏRİN HƏLL PRİNSİPLƏRİ NECƏ OLMALIDIR?

***Soyuq müharibənin sona çatması dünyanın bir çox fərqli nöqtəsində yeni mübarizə sahələrinin və yeni oyunçuların ortaya çıxmasına, eyni zamanda regional və qlobal mübarizənin xüsusiyyətində və vasitələrində ciddi dəyişikliklər yaşanmasına səbəb oldu. Bu mərhələdə Cənubi Qafqaz regionunda xüsusilə ağır proseslər getdi. Region ölkələrindən Gürcüstan və Azərbaycan ərazi bütövlüyü problemi ilə yanaşı ciddi dərəcədə qeyri-sabitlik yaşadılar. Bu qeyri-sabitlik özünü Gürcüstanda vətəndaş müharibəsi şəklində, Azərbaycanda isə vətəndaş müharibəsi təhlükəsi şəklində göstərdi.***

Gürcüstan və Azərbaycanın yaşadığı problemlər əsasən Cənubi Qafqazın strateji əhəmiyyətindən qaynaqlanırdı. Çünkü Cənubi Qafqaz yeni mərhələdə əhəmiyyəti artan iki region (Qara dəniz və Xəzər hövzələri) arasında həm körpü rolunu oynayırdı, həm də bu iki regionda təsirli olmaq üçün əhəmiyyətli idi. Xüsusilə ABŞ başda olmaqla Qərb dünyası ilə Rusiya arasında Cənubi Qafqaz uğrunda sərt rəqabət gedir. Bu rəqabət Cənubi Qafqazdakı problemləri daha da mürəkkəbləşdirir və problemlərin həllini də çətinləşdirir.

Cənubi Qafqazda ortaya çıxan etnik münaqişələr bunlar idi: Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı problemi ("Qarabağ problemi"), Abxaziya problemi və Cənubi Osetiya problemi. Bu üç problemin oxşar və fərqli cəhətləri mövcuddur. Bu qısa yazıda problemlərin hər birinin tarixi kökləri və inkişaf prosesləri üzərində durmaq mümkün deyildir. Amma ümumən qeyd etmək mümkündür ki, problemlərin həlli istiqamətindəki səylər ciddi nəticə yaratmayıb. Bunun əsas səbəblərindən biri də odur ki, problemlərin əsl mahiyyətinin müəyyənləşdirilməsi prosesində ciddi səhvlərə yol verilir. Problemlərə yanaşmada Cənubi Qafqazın gələcəyi, beynəlxalq hüququn əsas prinsipləri və ümumən ədalət anlayışı deyil, mübarizə tərəflərinin imkanları əsas amil kimi çıxış edir. İmkanlar isə daim dəyişdiyindən həll üçün irəli sürülən planların xarakteri də tez-tez dəyişir, o, daha güclü olan tərəfin maraqlarına uyğun olur. Halbuki, problemlər elə həll olunmalıdır ki, proses qalıcı sülhü, ədaləti və sabitliyi təmin etsin. Bu cür həll prosesi həm də regionun strateji əhəmiyyətinin qorunması, regional sülh və əməkdaşlığa uzunömürlülük qazandırılması baxımından əhəmiyyətlidir.

Bu məqsədlə problemlərin hər birinin əsl xüsusiyyəti və tarixi inkişaf prosesi ortaya qoyulmalı, problemlərin dinamikası doğru incələnməli və problemlərin həlli prosesində mümkün olduğu qədər beynəlxalq hüquqa bağlı qalınmalıdır. Çünkü problemlərin həll olunmaması sadəcə Gürcüstana və Azərbaycana deyil, ümumilikdə regiona mənfi təsir edir. Cənubi Qafqazın tranzit region kimi əhəmiyyətinin artmasının qarşısında duran əsas maneələrdən biri məhz regiondakı etnik münaqişələrdir. Burada söhbət sadəcə enerji ehtiyatlarının beynəlxalq bazarlara çatdırılmasından deyil, ümumi mənada transportdan gedir. Etnik münaqişələr Cənubi Qafqazda regiondaxili əməkdaşlığa ciddi dərəcədə mane olduğu kimi, Cənubi Qafqaza xarici sərmayə cəlb edilməsinə də mane olur. Gürcüstan uğurlu xarici sərmayə siyasəti ilə bunu müəyyən dərəcədə aşsa da, bu kifayət deyil. Aydındır ki, münaqişələrin həlli xarici sərmayənin regiona cəlbi üçün daha geniş imkanlar yaradacaqdır.

***Ümumiləşdirəcək olsaq, Cənubi Qafqaz uğrunda rəqabət və beynəlxalq hüquqa zidd həll yollarının irəli sürülməsi Cənubi Qafqazdakı etnik münaqişələrin həllini çətinləşdirir. Bu, həm Cənubi Qafqaz ölkələrinin resurslarının faydalı şəkildə istifadə olunmasına mane olur, həm də Cənubi Qafqazın iqtisadi əhəmiyyətinin azalmasına səbəb olur. Cənubi Qafqazdakı etnik münaqişələr beynəlxaq hüququn əsas prisipləri çərçivəsində, xüsusilə dövlətlərin ərazi bütövlüyünün qorunması, sərhədlərinin toxunulmaz qalması prinsipləri daxilində həll edilməlidir. Bu prinsiplər əsasında həll yolu region üçün sabitliyin təminatı olacaqdır. Əks halda sadəcə güc amilindən yola çıxılaraq həll yolu axtarılması problemləri həll etməyəcək, hər dəfə daha da ağırlaşdıracaqdır.***

Araz ASLANLI,
Azərbaycan Dövlət İqtisad Universiteti

## 14 NOYABR ÜMUMDÜNYA DİABETLƏ MÜBARİZƏ GÜNÜDÜR

Hal-hazırda Gürcüstanda 109 120 nəfər şəkərli diabetdən əziyyət çəkir. Onlardan 875-i 0-15 yaşlı uşaqlardır. Bu barədə Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzinin qeyri-yolxucu xəstəliklər departamentinin başçısı Lela Sturua məlumat verib.

Diabetlə ümumdünya mübarizə günü 1991-ci ildə Beynəlxalq Diabet Federasiyası və Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən dünyada diabet xəstəliyinin artması təhlükəsinə cavab olaraq təsis edilib. 2007-ci ildən noyabrın 14-də Ümumdünya diabetlə mübarizə günü BMT-nın himayəsi altında keçirilir.

Gürcüstanda yalnız 2015-ci ildə 20 955 xəstəlik halı qeydə alınıb ki, bunun da 157-si uşaqların payına düşür.

Ağızda quruluq, ovcun və pəncənin qaşınması, tez-tez susuzluq hiss etmək, tez-tez işəmə, çəki itirmə, yuxululuq, yorğunluq – bu və digər simptomlar şəkərli diabetin əlamətləridir. Lela Sturua əlamətlərin meydana çıxmasını gözləmədən profilaktika üçün həkimə getməyi məsləhət görür.

Sturua vurğulayıb: "Hər bir adam qanında qlükozanın miqdarının nə qədər olduğunu bilməlidir". Profilaktika metodlarına gəlincə, düzgün qidalanmaq və fiziki cəhətdən fəal olmaq lazımdır.

Sturuanın sözlərinə görə, yüksək şəkərli qidalardan qaçmaq, koka-kola, limonad, energetik içkilər, fast-fud, siqaret və alkoqoldan imtina etmək tələb olunur.

"Gürcüstanda adamlar öz sağlamlıqlarına çox məsuliyyətsiz yanaşırlar. Biz özümüz xəstələnməyimizə kömək edirik. Diabet çoxlu fəsadlar törədən, ölümlə nəticələn ən mürəkkəb xəstəliklərdən biridir, məhz buna görə daim həkim müşahidəsi vacibdir" – Sturua qeyd edib.

Şəkərli diabet sağalmaz xəstəlik sayılır, lakin insulinin köməyi ilə bu xəstəliyi nəzarətdə saxlamaq mümkündür. Diabet ölüm və şikəstliklə nəticələnən xəstəliklərin üçlüyünə daxildir. Bu xəstəlik insanda istənilən yaşda əmələ gələ bilər.

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, şəkərli diabet əhalinin ölüm hallarını 2-3 dəfə artırır, ömür müddətini qısaldır. 2014-cü ildə bütün dünyada 1980-ci ildəki 108 milyonluq xəstəlik halına qarşı yaşlılar arasında 422 milyon diabetdən əziyyət çəkən adam qeydə alınmışdır. Hər il xəstələrin sayı artmaqdadır.

## SOCAR GÜRCÜSTANDA BİR NEÇƏ MÜKAFATA LAYİQ GÖRÜLDÜ

Noyabrın 10-da Tbilisidə Georgian Times media holdinqi və Gorbi marketinq araşdırmaları şirkəti 17-ci dəfə biznes reytinqin qalibi olan şirkətlərin mükafatlandırma mərasimini keçirib.

Bu barədə Azərbaycan Dövlət Neft Şirkətindən məlumat veriblər.

Məlumata görə, ən yaxşı şirkət və ən işgüzar adamların seçimində müstəqil ekspertlər, şirkət rəhbərləri, iqtisadi mövzuda yazan jurnalistlər, konsaltinq şirkətləri, qeyri-hökumət təşkilatları, fondlar, sosial tədqiqat xidmətləri iştirak ediblər.

SOCAR Georgia Petroleum "Ən böyük vergiödəyici", "Ən yaxşı infrastruktur və yanacaq doldurma stansiyaları şəbəkəsi", "Ən böyük işəgötürən" nominasiyalarının qalibi olub. SOCAR Georgia Gas "Ən yaxşı inkişaf strategiyası", "Ən yaxşı xidmət", "Ən yaxşı innovasiya şirkəti" nominasiyalarında mükafatlara layiq görülüb. Qara dəniz sahilində SOCAR-a məxsus Kulevi terminalı – MMC Black Sea Terminal "İlin sərmayəçisi" elan edilib.

SOCAR Georgia Petroleum səs çoxluğu ilə müsabiqənin Qran-pri mükafatını qazanıb.

Mərasimdə parlament üzvləri, hökumət nümayəndələri, biznesmenlər, ziyalılar, diplomatlar, yerli və əcnəbi jurnalistlər də iştirak ediblər.

## AZƏRBAYCAN VƏ GÜRCÜSTAN MÜTƏXƏSSİSLƏRİ İQLİMİN MODELLƏŞDİRİLMƏSİ ÜZRƏ TRENİNQ KEÇƏCƏKLƏR

Clima East (CEEF) layihəsinin ekspert xidmətləri qurumu Azərbaycanda və Gürcüstanda SWAT (torpaq və hidroloji vəziyyətin qiymətləndirilməsi aləti) iqlim modelləşdirilməsi vasitəsindən istifadə olunması üzrə bir sıra treninqlər keçirib. Bakıda və Tbilisidə keçirilən treninqlər su ehtiyatlarının vəziyyətinin, habelə iqlim dəyişmələrinin ona təsirinin qiymətləndirilməsi modelinin hazırlanması, eləcə də hidrometeorologiya mütəxəssislərinin bu metoddan müstəqil şəkildə istifadə etməsinə nail olunması məqsədilə keçirilib.

SWAT modeli su resurslarının iqlim dəyişmələrinə davamsızlığını qiymətləndirmək məqsədilə yaradılıb.

Clima East layihəsini Avropa İttifaqı Azərbaycan, Gürcüstan, Ermənistan, Ukrayna, Moldova və Belarus olmaqla Şərq tərəfdaşlığı ölkələrinin hamısında həyata keçirir. Bu model iqlim dəyişikliklərinin arzuolunmaz təsirlərinin azaldılması və uyğunlaşmanın yüksəldilməsi üçün region ölkələrinin təsirli yanaşma qəbul etməsinə yardım edəcək.

## AZƏRBAYCAN VƏ GÜRCÜSTAN YOLXUCU XƏSTƏLİKLƏRƏ QARŞI BİRGƏ MÜBARİZƏ APARACAQ

Tbilisidə Yolxucu Xəstəliklər Departamentinin Monitorinq Mərkəzinin 20 illiyinə həsr olunmuş konfrans keçirilib.

Məlumata görə, tədbirdə ABŞ, Almaniya, Gürcüstan və Ukraynadan 130-a yaxın nümayəndə iştirak edib.

Gürcüstan Səhiyyə Nazirliyinin Yolxucu Xəstəliklər Departamentinin rəhbəri Paata İmnadze Azərbaycan Səhiyyə Nazirliyinin Yolxucu Xəstəliklər Bölümü və Gürcüstan Səhiyyə Nazirliyinin Yolxucu Xəstəliklər Departamenti arasında sıx əlaqələrin olmasını vurğulayıb. O, deyib: "Bir neçə gün əvvəl Qaxda Azərbaycan və Gürcüstan nümayəndə heyətlərinin görüşü olub. Yolxucu xəstəliklərlə mübarizə məsələləri müzakirə edilib. "Sibir yarası" və "brusellyoz"un yayılmasının yolverilməzliyinə dair birgə layihənin gerçəkləşdirilməsi qərara alınıb".

Konfransda müxtəlif xəstəliklərlə mübarizə metodları ilə bağlı fikir və təcrübə mübadiləsi aparılıb. Tərəflər yeni layihələr üzrə saziş imzalayıblar.



# ABŞ-IN DONALD TRAMP SEÇİMİ VƏ DÜNYANIN GƏLƏCƏYİ

Sahib MUSTAFA
*sahib1975.sm@gmail.com*

**Hazırda dünya ictimayyətinin ən çox müzakirə etdiyi mövzu ABŞ-da prezident seçkiləri və onun nəticəsi ilə bağlıdır. Şübhəsiz ki, dünya siyasətində ən ağır çəkiyə malik və onun lokomotivi olan bir dövlətin birinci şəxsnin seçimi müxtəlif dairələri yaxından maraqlandırdı. Və nəhayət, Ağ evin 45-ci sakininin adı bəlli oldu – sürpriz isim – Donald Tramp.**

Etiraf edək ki, seçkiqabağı reytinqlər faktın əksini söyləyirdi. Belə ki, Demokratlar partiyasının namizədi Hillari Klinton rəqibini 4-5 bənd qabaqlayırdı. Bu da ABŞ prezident seçki sisteminə əsasən nəzərəçarpacaq bir fərq idi. Ona görə də böyük çevrələr xanım Klintonun mütləq qalib gələcəyini proqnozlaşdırır və strategiyalarını bu müstəvidə qururdular. Lakin, siyasətdə də bəzən gözlənilməzlər baş verir. Zəngin siyasi kariyerası olan, dünya çapında tanınmış siyasi xadim daha çox populist və bir o qədər də irticaçı çıxışları ilə yadda qalan iş adamına məğlub oldu. Görünən odur ki, amerikan ictimayyəti ölkələrinin ənənəvi siyasətində dəyişikliklər istəyir və qloballaşan dünyada ABŞ-ın təhlükəsizliyi məsələsi onlar üçün ən priaritet məslədir. Bu faktordan respublikaçı Tramp məharətlə istifadə etdi. Amerikalılar gələcək talelərini indiyədək heç bir dövlət idarəetmə təcrübəsi olmayan şəxsə həvalə etdilər.

Əgər, Hillari Klinton ABŞ prezidenti seçilsəydi, yəqin ki, seçkilərin nəticəsi bu qədər geniş rezonans doğurmazdı və ekspertlər gələcək üçün bədbin, çalxantılı proqnozlar verməzdilər. Böyük Britaniyada "Brexit"çilərin qələbəsi, Fransada "Milli Cəbhə"nin fəallaşması beynəlxalq münasibətlərdə dövlətçilik və milli dəyərlərin siyasətdə ön plana keçməsinə işarədir. Müsəlmanların ABŞ-a axınının qarşısını alacağı, Meksika ilə sərhəd boyu divarların çəkiləcəyi və Latın Amerikası ölkələrinə qarşı sərt addımlar atacağı haqqında "çiçəyi burnunda" prezident Trampın seçkiqabağı vədləri dünyada ABŞ-ın hegomoniyasının daha qabarıq formada şəkillənəcəyinə işarədir. Lakin, ABŞ-ın dövlət idarəetmə institutunun uzun illər boyu formalaşdığını və xüsusən də xarici siyasətinin bəlli məcrada fəaliyyət göstərməsini nəzərə alaraq beynəlxalq arenada "kataklizm"lərin yaşanmayacağını söyləmək olar. Üstəlik qocaman Trampın siyasi karyerasının kasadlığı bunu deməyə əsas verir. Tramp seçkidən əvvəl Putinin "heyranı" olmasını, Vaşinqtonun Moskva münasibətlərinin normallaşmasının vacibliyini vurğulayır və bunun üçün əlindən gələn bütün vasitələrdən edəcəyini bidirirdisə, də prezident seçildikdən sonra tam əksini söylədi. Belə ki, Krım məsələsinə görə Rusiyaya qarşı embarqoların davam edəcəyini qeyd etdi.

Tramp dönəmində ABŞ yaddan çıxmış köhnə müttəfiqlərinin yenidən rəğbətini qazanmasına çalışacaqdır. Son zamanlar Ankara ilə Vaşinqtonun münasibətlərində yaşanan soyuqluğun istiləşməsi gözlənilir. Ağ evin Köhnə qitədəki müttəfiqləri tərəfindən Türkiyənin "küsdürülməsi" Trampın xarici siyasət vektoru ilə üst-üstə düşmür. Çünki, Suriya məsələsində və Yaxın Şərq regionunda stabilliyin bərqərar edilməsində Türkiyə faktoru mühüm əhəmiyyət kəsb edir. Rusiya isə fürsətdən istifadə edərək təşəbbüsü ələ alaraq Ankara ilə bütün sahələrdə münasibətlərini genişləndirməkdədir. Bu barədə, həmçinin, Trampın təhlükəsizlik və kəşfiyyat məsələləri üzrə köməkçisi və yeni hökümətdə ABŞ Müdafiyə Naziri postuna namizədlər arasında adı hallanan Maykl Flinn də bildirmişdir. O, Güleni Türkiyənin "Üsəma ben Laden"i adlandırır və tezliklə onun Ankaraya təslim edilməsini vurğulayır. Bundan başqa o, beynəlxalq terrorizm və İŞİD-lə mübarizədə Türkiyəni ən etibarlı müttəfiq hesab edir.

**Qeyd edilənlər ABŞ-ın yeni prezidentdən gözlənilən məqamlardır. Lakin, son bir neçə onillikdə ABŞ prezidentləri arasında Tramp kimi "qapalı qutu" obrazı yaradan şəxs olmamışdır. Görünür ki, Donald Trampın prezidentlik dönəmi "maraqlı" siyasi hadisələrlə zəngin olacaq. Dünyaya xeyirlisi...**

# JAN-KLOD YUNKER AVROPANI ORDU YARATMAĞA ÇAĞIRIR

Avropa Komissiyasının rəhbəri Jan-Klod Yunker Avropa ölkələrinin təhlükəsizlik sahəsində əməkdaşlığı dərinləşdirmələri məsələsində israr edir. Bu isə uzunmüddətli perspektivdə ümumi Avropa ordusunun yaranmasına gətirib çıxarmalıdır. Yunker belə hesab edib ki, Donald Trampın qələbə çaldığı prezident seçkilərinin nəticələrindən asılı olmayaraq, Avropa İttifaqı öz müdafiəsini yenidən təşkil etməlidir. Bu barədə Deutsche Welle məlumat yayıb.

Noyabrın 9-da Berlində çıxış edən siyasətçi deyib: "Çox şeydə borclu olduğumuz amerikalılar perspektivdə Avropanın təhlükəsizliyini təmin etməyəcəklər". Yunker vurğulayıb: "Bu barədə biz özümüz düşünməliyik. Biz gələcəkdə Avropa ordusu yaratmaq məqsədilə Avropa müdafiə ittifaqının təşkil olunmasına bir daha cəhd etməliyik".

Bununla belə Yunker qeyd edib ki, bu plan Avropa Birləşmiş Ştatları yaratmaq məqsədi güdmür. O, deyib: "Bizim ölkələrin adamları Avropa Birləşmiş Ştatlarında yaşamaq istəmirlər. Avropanın vahid dövlət yaratmağa doğru getməsi təəssüratını da yaratmaq gərək deyil".

2010-cu ildən hər il Avropa İttifaqının üç ali rəhbərindən biri noyabrın 9-da Berlin divarlarının yıxılmasının ildönümündə gələcək Avropa haqqında nitq söyləyir.

# TÜRKİYƏ Aİ-YƏ DAXİL OLMAQ MƏSƏLƏSİNƏ DAİR REFERENDUM KEÇİRƏ BİLƏR



Türkiyə hakimiyyəti Avropa İttifaqına daxil olmaq məsələsinə dair ümumxalq səsverməsi keçirilməsi imkanlarını nəzərdən keçirir. Bu barədə noyabrın 13-də Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan jurnalistlərə bildirib.

Ərdoğan bəyan edib: "Avropa İttifaqı sadəcə istəyir ki, biz danışıqlar prosesindən çəkilək. Əgər onlar bizi istəmirlərsə, ev sahibi kimi bunu desinlər. Gərəkli qərarı qəbul etsinlər. Bizə necə münasibət bəsləmələrinə biz əbədi olaraq dözə bilmərik".

Türk tərəfi Brüsselə münasibətlərdən narazıdır, Ankarada belə hesab edirlər ki, o, Türkiyənin Aİ-yə qoşulmasına mane olur. Türkiyə Avropa İttifaqına daxil olmaq istəyini hələ 53 il bundan əvvəl bildirmişdi. Türkiyə prezidentinin sözlərinə görə, Avropa İttifaqı readmissiya haqqında vədlərinə əməl etməyib.

"Qərb Türkiyə üçün yaxşı heç nə etməyib və ölkə öz problemlərini müstəqil şəkildə həll edəcək" – Türkiyə lideri bir qədər əvvəl bəyan etmişdi.

# DONALD TRAMP PREZİDENT MAAŞINDAN İMTİNA EDİB

ABŞ-ın sayca 45-ci prezidenti olan, yeni dövlət başçısı seçilən milyardçı Donald Tramp prezident məvacibindən imtina edib.

Yayılan xəbərlərə görə, Tramp bunu CBS telekanalına müsahibəsində bəyan edib.

"Mən maaş almaq fikrində deyiləm. Qanuna uyğun olaraq məvacib almaq mütləqdirsə, ayda 1 dollar ala bilərəm " – deyə Donald Tramp vurğulayıb.

Qeyd edək ki, ABŞ prezidentinin illik maaşı 400 min dollardır. "Forbs" jurnalı Donald Trampın sərvətinin 3,7 milyard dollar dəyərində olduğunun təxmin edildiyi qənaətindədir.



# YUNESKO-DA 2015-Cİ İLİ JURNALİSTLƏR ÜÇÜN ƏN TƏHLÜKƏLİ İL ADLANDIRIBLAR

YUNESKO-da 2015-ci ili son onillik ərzində jurnalistlər üçün ikinci ən təhlükəli il adlandırıblar.

YUNESKO-nun məlumatına görə, ötən il ərzində 115 jurnalist öldürülüb. Son onillikdə isə toplam 827 jurnalist qətlə yetirilib.

YUNESKO-nun hesabatında qeyd olunur ki, jurnalistlərin işləməsi üçün ən təhlükəli yer Suriya və İraqdır. Belə ki, 2014-cü ildə burada İŞİD silahlıları bir neçə KİV nümayəndəsini qətlə yetirmişdilər. Bu iki ölkədə 2014-cü ildə 24, 2015-ci ildə isə 23 jurnalist həlak olub.

Təşkilat 2014-cü ildə Ukraynada 7, Əfqanıstanda isə beş jurnalistin həlak olduğunu bildirib. 2014 və 2015-ci illərdə Pakistanda hər il 4 jurnalist həlak olub.

Qurbanların əksəriyyəti bir-birindən asılı olmadan işləyən və daha çox gərəkli müdafiəsi olmayan yerli, o cümlədən də ştatdankənar jurnalistlər olublar . YUNESKO bu cür müqavilə ilə işləyən işçiləri "media sahəsində daha zəif qrup" adlandırıb.

Qeyd edək ki, bir qədər əvvəl BMT-nin Baş Katibi son on il ərzində dünyada 700-dən artıq jurnalistin həlak olduğunu bildirmişdi.

# HİND BİZNESMEN ƏMƏKDAŞLARINA 1260 MAŞIN VƏ 400 MƏNZİL BAĞIŞLADI

Hindistanın "almaz kralı" Savcibxay Holakiya özünün ən yaxşı əməkdaşlarına 1260 maşın bağışlayıb.

Noyabrın ilk istirahət günü qeyd edilən və xeyrin şər üzərində qələbəsini, mənəvi zülmətdən çıxışın rəmzi olan Divali bayramı münasibətilə cənab Holakiya öz əməkdaşlarına 400 mənzil və çoxsaylı qiymətli hədiyyələr də paylayıb.

Mükafatlar əməkdaşların son beş il ərzində göstərdikləri məhsuldar və fədakar əməyə hörmət əlaməti olaraq verilib.

Cəmi 5500 işçi qiymətli hədiyyələr alıb. Bu hədiyyələrə Hare Krishna Exports şirkəti 7 milyon dollar xərcləyib. Qeyd etmək lazımdır ki, Hindistanda Divali bayramının gəlişi münasibətilə müəssisə əməkdaşlarına nəsə bağışlamaq adət halını alıb. Adətən şirkət rəhbərləri bir şirniyyat qutusu hədiyyə etməklə kifayətlənirlər.

Lakin 2012-ci ildən başlayaraq Savcibxay Holakiyanın Hare Krishna Exports şirkəti öz işçilərinə maşın bağışlamaq qərarına gəlib. Əgər 2012-ci ildə şirkət cəmi üç maşın hədiyyə etmişdisə, 2014-cü ildə artıq hədiyyə olunan maşınların sayı 491-ə, mənzillərin sayı isə 207-yə çatmışdı.

## AVTOMOBİLLƏRİN MƏCBURİ TEXNİKİ BAXIŞI BƏRPA OLUNUR

2018-ci ildən Gürcüstanda avtonəqliyyat vasitələrinin məcburi dövri texniki baxışı haqqında qanun qüvvəyə minir.

Texniki və digər gərəkli prosedurların həyata keçirilməsi standartlarını Gürcüstan hökumətinin razılaşdığı əcnəbi şirkətlər hazırlayır.



Gürcüstanın İqtisadiyyat və Sabit İnkişaf Naziri Dmitri Kumsişvili texniki baxışın həyata keçirilməsi dəyərinin şirkətlərlə məsləhətləşmələrdən sonra müəyyən ediləcəyini bildirib.

Nazir bəyan edib: "Gürcüstan bazarına daxil olacaq şirkətlər akkreditasiyadan keçməlidirlər. Akkreditasiya orqanının şirkətlərə tam nəzarət etmək icazəsi olacaq. Bizim vəzifəmiz, elə beynəlxalq məsləhətçi dəvət etməkdir ki, korrupsiyanın yolverilməzliyini təmin etsin".

Gürcüstanda məcburi texniki baxış Mixeil Saakaşvilinin prezidentliyi dövründə bir çox digər tənzimləyici qaydalarla birlikdə korrupsiya ilə mübarizə çərçivəsində ləğv edilmişdi.

Bütün avtomobillərin ildə bir dəfə texniki baxışdan keçməsini nəzərdə tutan qanunun bərpası hələ 2015-ci ildə həyata keçirilməli idi. Lakin bunun təxirə salınması haqqında qərar qəbul olundu. Gürcüstanda olan avtomobillər elə vəziyyətdə idi ki, onların çoxu yoxlamadan keçə bilməzdi, ya onların sahibləri maşınlarını təsdiq olunmuş normalara uyğun hala gətirmək üçün böyük məbləğ xərcləməli, ya da onların istismarını dayandırmalı idilər. Hər iki variant ciddi sosial çətinliklər yarada bilərdi.

İkinci təxirə salınmış tənzimləmə sağsükanlı avtomobillərin qeydiyyatının qadağan olunmasına aid idi. Qanun 2016-cı ilin martında qüvvəyə minməli idi, lakin dillerlərin etirazı üzündən onu 2017-ci ilin yanvarın 1-dək təxirə salmaq qərara alındı.

Hökumət nümayəndələrinin fikirlərinə görə, qalan vaxt biznes qurumların özlərinin bütün öhdəliklərini yerinə yetirmələri üçün və onların solsükanlı avtomobillər idxalına keçmələri üçün kifayətdir.

Hal-hazırda məcburi dövri texniki baxış yükgötürmə qabiliyyəti 3,5 tondan artıq olan yük avtomobillərinə və səkkiz nəfərdən artıq sərnişin daşıyan nəqliyyat vasitələrinə şamil edilir.

Hazırladı: Elsevər ELDAROĞLU

## GÜRCÜSTAN ÖZ ƏTRİYYATINI DÜNYA BAZARINA ÇIXARIR

Bu gün 21 adda ətriyyat məhsulunun istehsalı ilə məşğul olan "İveriya" ətriyyat şirkəti birincilik uğrunda dünya brendləri ilə mübarizə aparır. Bu sözlərlə şirkətin nümayəndəsi Maka Memanişvili çıxış edib.

O, deyib: "Bizim məhsullarımız yüksək keyfiyyətlidir, çünki Avropa inqrediyentlərindən hazırlanır. Biz aloe, evkalipt və digər bitki məhsullarından hazırlanmış yerli əlavələrdən də istifadə edirik. İstehsalın sonunda məhsula əlavə edilən efir yağlarından da istifadə olunur".

Yaxın perspektivdə qablaşdırmanın və şirkətin rebrendinqinin dəyişdirilməsi nəzərdə tutulur. Bu gürcü istehsalçılarına nəinki dünya standartları ilə uyğunlaşma imkanı verəcək, həm də dünya istehsalçıları ilə keyfiyyət və qiymət üzrə rəqabət aparmağa şərait yaradacaq. Şirkət bazardan dünya nəhənglərinə məxsus brendləri sıxışdırıb çıxarmağı düşünmür, sadəcə orada öz yerini tutmağı planlaşdırır.

Xatırladaq ki, bu gün "İveriya" şirkəti maye sabun, əl kremi, uşaq məhsulları, şampunlar, balzamlar və digər kosmetik ətiriyyat məhsulları istehsal edir. 1961-ci ildə yaradılmış müəssisə SSRİ-nin dağılmasınadək 150 adda məhsul istehsal edirdi.

## BEŞ İL ƏRZİNDƏ ON MİNƏDƏK BORCULU AİLƏNİN ƏMLAKI HƏRRACDA SATILIB

**"Rezonans" qəzetinin yazdığına görə, ötən beş il ərzində kommersiya bankları, mikromaliyyə təşkilatları və xüsusi sələmçilər borcların ödənilməsi hesabına təxminən 10 000 ailənin əmlakını, əsasən də daşınmaz əmlakını satıblar.**

"Əmlakını itirən adamların sayı ildən ilə artır. Bu gün neçə adamın mülkiyyətini itirməsi barədə dəqiq statistika yoxdur. Reyestrdə hələ mülkiyyətini itirməyən borcluların qeydiyyatının artması bunun yaxın vaxtlarda baş verə biləcəyini göstərir.

Məsələn, məhkəmə qərarlarının icra Bürosunun saytında 178 500 borclunun sənədi qeydə alınıb. Əldə olan məlumatlara görə, işi icra xidmətinə verilənlərdən yalnız 20-25%-i əmlakını saxlaya bilir.

Hərraclarla gerçəkləşdirilən daşınmaz torpaq sahələrinə gəlincə, 2015-ci ildə 1 410, 2014-cü ildə 1721, 2013-cü ildə 1946, 2012-ci ildə 1953, 2011-ci ildə 1850 ailə mülkiyyətini itirib.

2011-2015-ci illərdə cəmi 9 378 ailə əmlakını itirib.

"Cəmiyyət və banklar" qeyri-hökumət təşkilatının məlumatına görə, problemli kreditlər məsələsi Gürcüstanın da aralarında olduğu aşağı və orta gəlirli ölkələrə xüsusilə kəskin təsir edir.

Banklar kreditlərin verilməsi zamanı müştərilərin əmlak varlığını nəzərə alır, maksimum təmin olunmuş kreditlər verməyə cəhd edirlər, buna uyğun olaraq Gürcüstan banklarında vaxtı keçmiş kreditlərin göstəricisi 2,2% təşkil edir. Bu Gürcüstan kimi yoxsul ölkələr üçün yüksək göstərici deyil.

2015-ci ildə 1410 borclunun əmlakı satışa çıxarılıb. Bunun 327-si (27%) kommersiya banklarının, 729-u (51%) isə xüsusi sələmçilərin payına düşür. Mülklərin satılmasında mikromaliyyə təşkilatlarının payı da nisbətən yüksək deyil. Bu satışların 225-i və ya 16%-i onların payına düşür.

2014-cü ilin göstəriciləri də buna bənzərdir. Satılmış 1343 obyektdən 306-sı (23%) bankların, 231-i mikromaliyyə təşkilatlarının, 735-i (55%) isə xüsusi sələmçilərin payına düşür.

Təşkilatın rəyinə görə, xüsusi sələmçilərin belə yüksək göstəricisi Gürcüstanda bu təsisatın leqallaşdırılması ilə, lakin bununla belə tamamilə nəzarətsiz qalması ilə bağlıdır.

**"Cəmiyyət və banklar" təşkilatında vurğulayıblar: "Bu sahədə heç bir tənzimləmə həyata keçirilmir. Kredit problemini həll etmək üçün sələmçilərə digər kreditlərlə birlikdə məlumatları bazada yerləşdirmək lazımdır. Nəzərə almaq lazımdır ki, onların xidmətlərindən əsasən bankların, hətta mikromaliyyə və onlayn kredit təşkilatlarının kredit vermədiyi aşağı və orta gəlirli vətəndaşlar istifadə edirlər. Satılmış əmlakın ümumi payında bankların və mikromaliyyə təşkilatlarının aşağı faizi göstərir ki, borcun qaytarılmasının digər imkanları qalmadığı zaman son variant kimi mülkiyyətin satışı banklar üçün olduqca arzuolunmaz haldır".**

*http://bizzone.info/business/2016/1477709742.php*

## TRAMP ABŞ SİYASƏTİNİN ANA XƏTTİNİ DƏYİŞƏCƏKMİ?



Hacı BƏKİROĞLU
*kafkasli@mail.ru*

**Son iki aydır ki, medianı seçki xəbərləri öz əsarətinə alıb desək bəlkə də yanılmarıq. Bütün televiziya kanalları, radiolar bu haqda danışır, saytlar, qəzetlər bundan yazır. Öncə ölkəmizdəki parlament seçkiləri, daha sonra da Amerikadakı prezident seçkiləri. Əsas da ABŞ-dakı prezident seçkiləri səs-küy yaradaraq müzakirə mövzusuna çevrildi. Mən də bu seçki haqqında öz fikirlərimi yazmaq istədim. Bir dəfə də mən başımı başlara qatmaq niyyətinə düşdüm. Mənə bu seçkilərdə kimin qalib gələcəyi maraqlı deyildi. Deyəcəksiniz bu nə danışır. Bəli maraqlı deyildi, çünki mən artıq onu qəbullanmışam ki, Amerikanın başına hər kim gəlir, gəlsin yalnız bir marağa xidmət edir, bir marağı davam etdirir: Amerika bir nömrəli olmalıdır, başını qaldıranın başı kəsilməlidir.**

Mövzuya Amerika seçimləri öncəsi debatlarda Trampın müsəlmanlara qarşı söylədiyi sözlərə əsaslanaraq bütün müsəlmanların "bu adam İslam düşmənidir" fikirləri ilə başlamaq istəyirəm və yazımı da bu hava üzərində kökləməyə qərar verdim. Elə bu sözlə bağlı sosial şəbəkələrdə gözəl bir cavab gəldi ki, guya Hillari Klinton İslam mədrəsəsi məzunudur. Düz deyib, hər kim deyibsə. Gəlin bir keçmişə nəzər salaq, Amerikanın hansı prezidenti İslama qarşı olmayıb ki? Mən sadəcə son 15-16 ili yadınıza salım. Soyuq şəkildə aparılan savaş 2001-ci ilin 11 sentyabr tarixindəki partlayışdan sonra istiləşərək kəskinləşmədimi? Ssenarisini özlərinin yazdığı və baş rolda da özlərinin oynadıqları səhnədə günahkarı Əfqanıstanda axtarmağa başlamadılarmı? Corc Buş "terrorla mübarizə" adı ilə guya ki, Üsamə bin Ladeni axtarırdı. Sülh və əminlik gətirmək adı ilə 2001-ci ilin oktyabrında Əfqanıstana girən Amerika ordusu 5000-dən çox dinc əhalini qətlə yetirdi. İraqda 2003-cü ildə başlayan müharibədə baş rolu oynayan Amerika nüvə silahı axtarışı adı ilə ölkəyə girdi, "sülh və demokratiya" adı altında ölkəni xarabalığa çevirib 1 000 000 insanı qətl etdi, milyonlarla insan da məhz ABŞ-ın bu məkrli siyasəti nəticəsində evindən-eşiyindən didərgin düşdü.

2009-cu ildə seçilən və sözdə müsəlman olan Barak Obama bu qətliamın davamçısı oldu. 2011-ci ildə Misirdəki qarşıdurmanı fitilləyən Obama 200 dən çox dinc sakinin qətlinə, 200 mindən çox insanın ölkədən didərgin düşməsinə səbəb oldu. Bununla da kifayətlənmədi, elə həmin ildə, yəni 2011-ci ildə Suriyanı atəş çüxuruna döndərdi. 5 ildir ki, sakitləşmək bilməyən savaşda araşdırmaların verdiyi tam olmayan təxmini siyahıda 370 mindən çox ölü sayı var. Bu hələ davam edən bir qarışıqlığın təxmini sayıdır. Onu da vurğulayaq ki, Trampa qarşı namizəd olan, bizlərin də bu gəlsə müsəlmanlar rahat nəfəs alar dediyimiz Klinton bu yuxarıda sadaladığımız qətliamların baş rolundakılardan biri idi. Donald Tramp heç olmasa düşmənliyini açıq etiraf edir. Bundan da elə düşünülməsin ki, mən Tramp tərəfdarıyam. Yuxarıda da vurğuladığım kimi mənim üçün fərq etmir.

**Mən təxmini olaraq yazdım, indi siz düşünün Tramp yarı yolda dayanıb, bu siyasəti yarıda kəsərmi? Əgər bu oyunlar durdurulsa, bu o deməkdir ki, Amerika o bölgələrdəki neftdən əl çəkir, strateji planlarından əl çəkir və müsəlman aləmini də sakit buraxıb, dost imici qazanır. Bunu da inanmıram ki, Amerika istəyə.**



## DİL ÜSTÜNDƏ DİL BİTİRMƏK

Afayət AFİQ

**Heç birimizdən gizli deyil ki, biz Gürcüstanda yaşayırıq. O da heç birimiz üçün yeni xəbər deyil ki, bizlər bu ölkənin vətəndaşlarıyıq. Ölkəmizin sözü ötən, sözü ilə iş bitən vətəndaşları olmaq üçün dövlətimizin, yəni doğmaca vətənimizin başıuca övladları olmaq üçün gürcü dilini bilməyin vacib olduğu, şükürlər olsun ki, uzun müddətdir hamımızın qəbul etdiyimiz gerçəklikdir. Dilini bilmədiyimiz qadına ana, ata deyə bilmərik, bizi dünyaya gətirib, gətirməməsindən asılı olmayaraq...**

İnsan nə qədər çox dil bilərsə, o qədər çox insandır. Neçə dil bilirsən o qədər insansan. Bir düşünün necə gözəl və gerçək deyimdir. Yəni, dil bilməyin faydaları əlinə qəzet alan insanların yüzdə yüzü üçün də məlum olan məsələdir.

Günümüzdə, çörəyimizin aslanın ağzında deyil, birbaşa mədəsində olduğu bir dönəmdə, dil bilmək aslanı hipnoz edib, çörəyi mədəsindən çıxarmaq deməkdir. Əlbəttə, bu, hər zaman təkbaşına yetərli olmaya bilər. Ancaq , bu həyat girdabından sizi gözəgörünməz iplərlə xilas edə biləcək vasitələrdən biridir. Dil bilmənin üstünlükləri haqqında bir çox xəbərlər, yazılar, müəllif fikirləri əlinizdəki “Yeni Yol” da daxil olmaqla, bir çox mətbu orqanda yayımlanıb və dərc edilib.

Mənim sizlərə bəhs etmək istədiyim çox incə bir məqam var. Gürcüstanda gürcü dilinin bilinməsinin ən böyük gərəklərdən, bilinməməsinin isə ən böyük fəlakətlərdən biri olduğunu nəinki biz, hətta dünya ictimaiyyəti bilir desəm, elə də böyük mübaliğəyə yol vermiş olmaram. Bir çox səbəblər gürcü dilinin başqa etnik nümayəndələr tərəfindən öyrənilməsi işində maneəçilik törədib. Nəticə isə göz önündədir. Gürcü dilinin bilinməməsi, bizlərin hər biri üçün az qala ən çox çeynənmiş, lakin buna baxmayaraq, hələ də udulub, həzm edilə bilməyən problemdir. Bu yöndə bir neçə ildir ki, ciddi işlər görülür və dövlət dilini vətəndaşına öyrətmək üçün kifayət qədər maddi və mənəvi enerji sərf edir. Dövlətin borcu dilini öyrətmək, vətəndaşın borcu da bu dili öyrənməkdir. Aramızda neynirəm, nəyimə gərəkdir, Gürcüstandan o yanda nəyə yarayır bu dil deyənlər də var. Əfsus ki, bunu deyənlərin əksəriyyəti də sərhəddi nümunə üçün də olsa keçməmiş olanlardır. Nə isə, özləri bilər, öz təfəkkürləri bilər.

Qeyd elədik ki, dərdimiz böyükdür. İllərdir bu azarın canımızdan çıxması üçün özümüz də, dövlət də bir ətək pul tökmüşük.

Başqa dilləri bilmənin gözəlliyini, dövlət dilimizin bilinməsinin önəmini qeyd etdik, amma mütləq yada salmamız gərəkən bir məqam da ana dilinin gözəl bilinməsidir. Məhşur gürcü yazıçısı İakob Qoqebaşvili deyir: “Ana dili ruhun dilidir, xarici dil isə yaddaşın dilidir”. Böyük şairimiz Xəlil Rza Ulutürk “Mənim dilim” şeirində deyir:

İllər ötdü, yaşa doldum,
Anladım ki, ana dilim
Ürəyimdən çıxmaz mənim,
Doğransam da dilim-dilim.

**Dünyanın bir çox yerində insanlar, o cümlədən də İranda Azərbaycan türkləri ana dillərini qorumaq üçün, bu gün də qan tökməyə, can verməyə hazırdırlar. Lakin, bir müddət əvvəl məhz bizim vətənimizdə, məhz bizim “ziyalı”, “zəkalı” gənclərimiz haya düşüb dövlətdən dilimizdə olan məktəblərin bağlanmasını, gürcüdilli edilməsini istəyirdilər. Onlar ana dili və ədəbiyyatının həftədə bir dəfə tədrisi, digər fənnlərin isə gürcü dilində keçirilməsinin bütün problemlərin həlli olacağına inanır və insanları da inandırmağa çalışırdılar. Onlar bunu real vəziyyəti görmədən istəyirdilər. Bu gün gürcü sektorlarında təhsil alan azərbaycanlı şagirdlərin acınacaqlı vəziyyətini görsəydilər yenə eyni fikirdə olardılarmı, bilmirəm? İstədiklərinin xəstəni öldürəcək bir şey olduğunu bilirdilər, yoxsa bilmirdilər, bu məlum deyil. Gerçək olan bir şey var ki, o uşaqlar elmdən kor, gürcü dilindən isə şikəstdirlər. Lakin, xoşbəxtlikdən heç bir dövlət bu qəbildən insanların ağlı və ağzı ilə bir şey ölçəcək qədər zəif deyil. Hər bir insanın öz ana dilində danışmaq, orta təhsil almaq hüququ var. Bu insanın sağlam təfəkkürdə formalaşması üçün şərtdir. Statistika da təsdiqləyir ki, öz dilini yaxşı bilən insanların ikinci, üçüncü dilləri öyrənməsi daha asandır. Dövlət dilinin tədrisi yönündə bir çox işlərin görüldüyünü az əvvəl də qeyd etdik. Tam sağalmaq və gözəl nəticələr almaq üçün bir neçə ilə ehtiyacımız var. Səbrli olsaq hər şey gözəl olacaq, bu problem də aradan qalxacaq, biz vətənimizin dilində yazmağı, oxumağı, danışmağı, ünsiyyətdə olmağı bacaracağıq. Biz vətənimizlə tərcüməçisiz ünsiyyətdə olmağı bacardığımız gün, özümüzü və dilimizi unutmadığımız gün, bir dili yıxıb üstündə başqasını qurmağa çalışmadığımız gün ölkəmizin də, dünyamızın da xoşbəxt vətəndaşları olacağıq...**

## QARDABANİDƏ “SANO” MÜALİCƏ DİAQNOSTİKA MƏRKƏZİ AÇILIB

Qardabani şəhərində, keçmiş rayon infeksion xəstəxanasının ərazisində “Sano” müalicə diaqnostika mərkəzi açılıb. Yeni klinikanın açılış mərasimində Kvemo Kartli qubernatoru Paata Xizanişvili və Qardabani bələdiyyəsinin sədri Qoça Camarauli, sakrebulo rəhbəri Vaja Qenqaşvili iştirak ediblər. Yeni açılmış diaqnostika mərkəzində Qardabani əhalisinə paytaxtın və Kvemo Kartli regionunun aparıcı həkim- mütəxəssisləri yüksək keyfiyyətli tibbi xidmət göstərəcəklər. Burada əhaliyə ailə həkimi, uşaq həkimi, kardioloq, nevroloq, endokrinoloq, ginekoloq, dermato-veneroloq, uroloq, revmatoloq, travmatoloq, ümumi cərrahiyə, stomotoloq, oftolmoloq, otorinolarinqoloq, onkoloq, mamoloq, anqioloq, qastrofibroskopiya kimi xidmətlər göstəriləcək.

Müalicə diaqnostika mərkəzinin biokimyəvi klinik laborotoriyası HUMAN- firmasının ultra müasir alman tibbi aparatları və reaktivləri ilə




təchiz edilib. Exoskopiya kabinetində aparıcı 4D tipli exoskopdan istifadə edilir.

Stomotoloji proseslər zamanı oral kameralı monitorlardan istifadə ediləcək. İxtisas həkimləri yüksək səviyyəli tibbi-texnoloji qurğularla təmin ediliblər, steriliziasiya və dezinfeksiya standartları ilə müəyyən edilmiş bütün normalara əməl olunur.

## OXUCULARIN ƏKSƏRİYYƏTİ KİŞİNİ AİLƏNİN BAŞÇISI HESAB EDİRLƏR

Sputnik Gürcüstan saytının keçirdiyi rəy sorğusuna görə, rəyi soruşulan oxucuların böyük hissəsi kişini ailənin başçısı hesab edir.

“Sizin ailənin başçısı kimdir?” sualına sorğu iştirakçılarının 47,6%-i ailənin başçısının kişi olduğunu bildirib. Ailədə qadının başçılığını isə 7,8% qəbul edib. Ailədə kişinin və qadının eyni rola malik olması düşüncəsini isə 30,1% paylaşır.

Uşaqları ailədə əsas sayanlar 11,7% təşkil edirlər. 1,9% qaynananı (arvadın anasını), 1% isə qaynatanı (arvadın atasını) ailədə birinci hesab edir.

Qeyd edək ki, rəy sorğusunda iştirak edənlərdən heç biri ərin ata və anasına qaynana və qaynata kimi bir dənə də olsun səs verməyib.

## GÜRCÜSTANDA BOŞANMALARIN SAYI ARTIR



Gürcüstanda boşanmaların sayı əhəmiyyətli dərəcədə artıb. Son iki ildə göstərici rekord həddə çatıb. Yalnız 2016-cı ildə dağılan ailələrin sayı 8 mini keçib.

Artım dinamikası qorxuncdur. Dövlət Xidmətlərinin İnkişafı Agentliyində bildiriblər ki, 2007-ci ildə ölkədə qeydə alınan boşanmaların sayı mindən bir az artıq idi.

Son on ilin boşanma statistikası belədir:

2007-ci ildə 1 082; 2008-ci ildə 3 152; 2009-cu ildə 4 052; 2010-cu ildə 4 746; 2011-ci ildə 5 871; 2012-ci ildə 7 151; 2013-cü ildə 8 095; 2014-cü ildə 9 115; 2015-ci ildə 9 130.

Rəsmi məlumatlara görə, nikahların sayı da azalır. Son illərdə qeydə alınmış nikahların sayı təqribən 10 minə qədər azalıb.

Son on ilin nikah statistikası belədir:

2007-ci il 24 641; 2008-ci il 31 967; 2009-cu il 32 060; 2010-cu il 34 584; 2011-ci il 31 030; 2012-ci il 30 056; 2013-cü il 34 473; 2014-cü il 31 024; 2015-ci il 29 280; 2016-cı il 21 620.

Dövlət Xidmətlərinin İnkişafı Agentliyinin elektron bazasında 2 noyabr 2016-cı il tarixinin məlumatı üzrə 1 381 116 qeydiyyatda olan cütlük var.

## SƏHİYYƏ NAZİRLİYİ XƏSTƏLƏRİN DƏRMAN PULUNU DA ÖDƏYƏCƏK

Gürcüstan Səhiyyə Nazirliyi ümumi səhiyyə istifadəçilərinin sevincinə səbəb olacaq xəbər yayıb.

Belə ki, Səhiyyə Nazirliyi yaxın gələcəkdə xəstələrin dərmanlarının maliyyələşdirilməsi məsələsini nəzərdə tutan layihənin həyata keçirilməsi niyyətindədir. Məlumat Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilib.

Nazirlikdən verilən məlumata görə, əgər əvvəllər nazirlik xəstələrin dərmanlarını yalnız təcili hallarda maliyyələşdirirdisə, artıq bundan sonra maliyyə dəstəyi planlı müalicə zamanı da veriləcək.

Lakin, xatırladaq ki, Səhiyyə Nazirliyinin bu təşəbbüsünün hansı xəstələri əhatə edəcəyi hələlik tam şəkildə dəqiqləşdirilməyib.

## GÜRCÜSTANDA KORLAR ÜÇÜN İLK KAFE AÇILIB

Bir neçə ay qabaq Tbilisidə açılmış “Mziuri” kafesi görməyənlərin sərbəst şəkildə menyü ilə tanış ola bildikləri ilk müəssisədir. Menyünü brayl əlifbası ilə çap etmək ideyasının müəllifi Anna Qoquadzedir.

Onun sözlərinə görə, məqsəd kiçik kafeni hamının məkana çevirmək və başqalarına nümunə göstərməkdən ibarətdir.

“Mziuri” kafesində gələcəkdə məhdud imkanlı şəxslərin işlə təmin edilməsi barədə də düşünürlər.

Anna Qoquadze sosial şəbəkədə yazır: “Təəssüf ki, ölkəmizdə hələlik məhdud imkanlı şəxslərə iş verilməsinin nə dərəcədə vacibliyini və istənilən biznes üçün bunun nə qədər faydalı olmasını başa düşmürlər. Normal ölkələrdə belə adamların işlədiyi, pandusu və brayl əlifbası ilə menyüsü olan kafelər var, hələlik bizdə həm dövlət, həm də biznes bu məsələyə soyuq yanaşır, bizim kiçik kafemiz bu sadə detalları ilə fəxr edir”.

## TBİLİSİDƏ CƏLƏL MƏMMƏDQULUZADƏNİN "POÇT QUTUSU" KİTABININ TƏQDİMATI KEÇİRİLDİ

Noyabrın 5-də Şota Rustaveli adına Gürcüstan Ədəbiyyat İnstitutunda Cəlil Məmmədquluzadənin gürcü dilinə tərcümə olunmuş hekayələrindən ibarət "Poçt qutusu" kitabının təqdimatı olub.

Mərasimdə Azərbaycanın və Gürcüstanın yazıçılar birliklərinin üzvləri, elm xadimləri iştirak ediblər.

Gürcüstanın ədəbiyyatşünas-tədqiqatçısı, tərcüməçi Almaz Mirzəoğlu C.Məmmədquluzadənin 13 hekayəsini gürcü dilinə tərcümə etdikdən sonra "Poçt qutusu" adlı yeni kitab nəşr etdirib.

Təqdimat mərasimində Gürcüstan Ədəbiyyat İnstitutunun direktoru İrma Ratiani, AMEA-nın vitse-prezidenti, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli, gürcü alimi Levan Breqadze, akademik Rain Metreveli, ədəbiyyatşünas Bədirxan Əhmədov və b. çıxış edərək "Poçt qutusu" kitabındakı hekayələr barədə fikirlərini bölüşüb, C.Məmmədquluzadənin yaradıcılığının əhəmiyyəti barədə danışıblar.

Almaz Mirzəoğlu elmi tədqiqat və tərcümə işlərini bundan sonra da davam etdirəcəyini vurğulayaraq, yaradıcılığına verilən qiymətə görə minnətdarlığını bildirib.

Kitabın elmi redaktoru İrma Ratiani, nəşriyyat redaktorları gürcü tədqiqatçısı Nariman Yasağaşvili və Mirzə Məmmədoğludur.



Tədbirdə filologiya elmləri doktoru, professor, AMEA-nın Ədəbiyyat İnstitutunun direktor müavini, Azərbaycan Aşıqlar Birliyinin sədri Məhərrəm Qasımlının gürcü dilinə tərcümə olunmuş "Yağmur qoxusu" adlı şeirlər kitabının da təqdimatı olub. Kitabdakı şeirləri gürcü dilinə Mirzə Məmmədoğlu və gürcü şairi mərhum Avto Çxaidze tərcümə ediblər.

## MÜƏLLİMLƏR DAHA PEŞƏ İMTAHANLARI VERMƏYƏCƏKLƏR

Gürcüstanın təhsil nazirinin təşəbbüsü ilə gələn ildən pedaqoqlar yalnız ixtisaslarını təsdiq edəcəklər.

Gürcüstanın Təhsil və Elm Naziri Aleksandr Cecelava jurnalistlərə 2017-ci ildən pedaqoqların öz profil fənləri üzrə imtahan verməyəcəklərini bəyan edib.

Gələcəkdə müəllimlər pedaqoji vərdişlər səviyyəsində yoxlanılacaqlar, bu imtahan yox, ixtisasın təsdiqlənməsi adlanacaq.

"Mənə elə gəlir ki, 30 illik stajı olan pedaqoqun imtahan edilməsi düzgün deyil. Bunu necə istəyirsiniz adlandırın, ancaq imtahan və ya baryer adlandırmayın" – nazir bəyan edib.

Cecelava bəyan edib ki, yaxın vaxtlarda müəllimin peşəkar inkişafına və karyera yüksəlişinə dair sxemin yeni variantı dərc olunacaq. Pedaqoqların işində təkcə şagirdlərlə deyil, həm də onların valideynlərilə işləmək mühüm komponent olacaq.

Əgər pedaqoqlar valideynlərlə, habelə xüsusi ehtiyacı olan uşaqlarla daha çox fərdi qaydada işləmək istəyində olduqları təqdirdə, peşəkar sxemdə daha çox bal alacaq, bu da onların maaşında əks olunacaq.

Nazir son aylar ərzində 13 mindən çox pedaqoqla görüşdüyünü, təhsil sahəsində mövcud olan problem və ehtiyaclar barədə məlumat aldığını vurğulayıb.

## GÜRCÜSTAN MƏKTƏBLƏRİNDƏ Wi-Fi TEXNOLOGİYASI TƏTBİQ OLUNACAQ

Gürcüstanın Təhsil və Elm Nazirliyi Microsoft şirkətilə Gürcüstan məktəblərində ümumitəhsil proseslərini dəstəkləmək məqsədilə Wi-Fi texnologiyalarının tətbiq olunmasını nəzərdə tutan memorandum imzalayıb. Bu barədə nazirliyin rəsmi səhifəsində məlumat verilib.

Layihənin birinci mərhələsində, 2016-2017-ci illər ərzində Gürcüstanın müxtəlif şəhərlərində 32 məktəb pulsuz Wi-Fi şəbəkəsilə, daha sonra isə bütün ölkə məktəbləri naqilsiz internetlə təmin ediləcək.

Hal-hazırda Gürcüstan məktəblərinin əksəriyyətində internet olsa da, bu vaxtadək Wi-Fi texnologiya sistemi hələlik tətbiq olunmayıb. İmzalanan memorandum məhz məktəblərdəki bu boşluğu aradan qaldırmaq məqsədilə razılaşdırılıb.

Memorandum çərçivəsində məktəb bilgisayarları yeni əməliyyat sistemləri və Microsoft ofis proqramları ilə yenilənəcək.

Microsoft şirkəti artıq yeddi ildir ki, Gürcüstanın Təhsil və Elm Nazirliyi ilə əməkdaşlıq edir, müəllimlər üçün konfranslar, seminarlar və treninqlər keçirir.

## ALIN YAZISINI ALIN TƏRİ İLƏ SİLMƏK...

İBRAHİMXƏLİL



**İmam Sadiqə görə, "Qiyamət günündə Allah-taala xəlq olunanları (məxluqatı) bir yerə yığanda, onlara buyurub əmr etdiklərinin sorğu-sualını aparar, ancaq onlar üçün təyin etdiklərindən heç nə soruşmaz".**

İncəsənətin bir növü olan rəssamlıq da özünü və başqalarını dərindən dərk etmək vasitəsi olduğundan mən Rizvanla ancaq onun "təyinat"ı olan rəssamlıq barədə, yəni onun üçün "təyin edilənlər" çərçivəsində danışıram. Qayaüstü rəsmlərdən tutmuş – misilləmə misal üçün – Rizvanın çox böyük hörmət bəslədiyi, Azərbaycanın Əməkdar rəssamı (ad adamı bəzəməsə də, Sakit müəllimə indiyəcən Xalq rəssamı adının verilmədiyi bizi çox təəccübləndirir) rəssamlıqda Opalizm üslubunun əsasını qoymuş Sakit Məmmədova qədər...

Rizvanın Bakıda Səttar Bəhlulzadə adına sərgi salonunda fərdi rəsm sərgisinin keçirilməsində Sakit müəllimin böyük əməyi olub. Görkəmli sənətkarların xislətində onlardan sonra gələn istedadlara xeyirxahlıqlar göstərmək, yaxşılıqlar eləmək həmişə var! Əlbəttə, Rizvan bu hörməti bir nəqşi-zəmir olaraq xatirində, xatiri qədər də qəlbinin dərin guşələrində saxlayacaq.

Etiraf edim ki, Sakit müəllimin yaradıcılığı ilə də məni Rizvan tanış edib. Bu yazının sərlövhəsinə çıxartdığım "Alın yazısını alın təri ilə yumaq" füsunkar fikri də hörmətli Sakit Məmmədova məxsusdur.

Alın yazısı ilə bağlı bunları da demək istəyirəm ki, sənətkarlardan bəziləri öz alın yazılarına güllə (çiçəklə), bəziləri hətta güllə sıxmaqla, bəziləri də bahar yağışları, payız küləkləri, bəmbəyaz qış şaxtaları ilə düzəliş etmək kimi çoxsaylı cəhdlərdə bulunublar. Amma "alnından Ay doğan" (ifadə şair Çingiz Əlioğlunundur) sənətkarlar alın yazılarını yalnız alın təri ilə "yuyublar".

Belə rəvayət edirlər ki, alın yazısından qaçmaq olmur. Amma "istisna"ya baxın: ibn Nubətə görə, "Əmirəl-möminin (ə) əyilmiş bir divarın yanından başqa bir divara tərəf getdi. Həzrətə ərz olundu ki, ey əmirəl-möminin, Allahın qəzavü-qədərindənmi qaçırsan? Buyurdu: Allahın qəzasından Onun qədərinə qaçıram"...

...Sakit müəllimin "Adəm və Həvva", "Xatirə şəkli", "Günaydın", "Falabaxanlar", "Toy", "13 nömrəli avtobus" – siyahını adi fəhlə ailəsində doğulmuş bu hörmətli rəssamın fəth etdiyi ingilis kralının sarayına qədər uzatmıram – kimi əsərlərinə baxarkən qan və ruh qohumum Rizvan İsmayılın alın yazısında Sakit müəllimin məxsusi yeri olduğuna zərrəbin zərrə boyda şübhəyə yer qalmır.

Biz görkəmli rəssamlardan söz açarkən onlar haqqında ümid və ehtiram dolu "bənzərsiz və yeganə" kimi ifadələr də işlədirik. Amma Rizvan da "öz Axirət şəkli"ni çəkəndə, sanki Sakit Məmmədova ünvanlanan "Vəfalı dost"da, "Tövbədən sonra"da, "Adsız"da da bənzərsizdir!

Mən hər dəfə Rizvanın alın tərini görəndə onun bəsirət gözünün nə qədər çox görə və ölçə bilməsinə heyrət edirəm.

...Rizvanın dediyinə görə, stimulverici sənətkar olaraq ona Sakit müəllimin (və arxitektor-dizayner mərhum Zaha Hədidin) böyük təsiri olub. Yarıalmatək həmin oxşar minvalla, etiraf edim ki, Rizvanın özü də öz dediyi mənada, stimulverici sənətkardır. Bir qədər təvazökarlıqdan uzaq və yarızarafat da olsa, onun fırçasına, alın tərinə baxıram və hərdən-birdən özümü ədəbi yaradıcılıqda az qala (arazbarı)... baron hiss edirəm.

Uca Yaradanın Rizvan üçün "təyin etdikləri"ndə, yəni onun təyinatında, əsərlərinin "güzgü surəti" deyil, dünya-aləmin, batinimizin... onun fırçası və fəziləti ilə yaradılmış görünüşləri var!

Vaqif yazarlardan biri deyib ki, "gələcək – döyüşlərdə, dar ağacı və katorqalarda igidliklə ölən kəslərin deyil, yeniləşib "islahatlar"a duruş gətirənlərindir"! Yeniləşmə, intibah, novatorluq mənasında, Rizvanın əsərlərinin hətta bəzi cüdamları da adam edəcəyinə əminəm! Süsən-Sünbül tərəflərdə yeniliyi, dirçəlişi inkar ruhu hər nə qədər çox olursa-olsun...

P.S.

Əlimi alnıma aparıram və alın yazımı da, astar üzümü də oxuya bilən dostlarım yadıma düşür: Yaradanın alın yazıma daxil etdiyi qələm dostlarım.

**Sizə bir şey də pıçıldayım, amma gərək eşidən az olsun: Rizvan da mənim dostumdur və Tanrıdan aşkarda-gizlində çox təvəkkül təvəqqe edirəm ki, dostumun dostunun (Sakit müəllimin timsalında) da dostu olam...**

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

15 noyabr 2016-cı il
№021 (35)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “იენი იოლი” საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci tarixdən nəşr olunur

## 7 YAŞLI TÜRK AKTRİSASININ AYLIQ GƏLİRİ 20 MİNDİR



Türkiyənin “Star” telekanalında yayımlanan “Ana” (“Anne”) serialında çəkilən 7 yaşlı Beren Gökyıldız son günlər aktrisalıq qabiliyyəti ilə sosial şəbəkələrdə müzakirələrə səbəb olub.

Azyaşlı aktrisanın serialın hər bölümnə görə 5 min lirə, aylıq 20 min lirə qazandığı bəlli olub.

Serialda Melek obrazını canlandıran Beren Gökyıldızla digər baş rolları Cansu Dere və Vahide Perçin oynayır.

Xatırladaq ki, B. Gökyıldız 2014-cü ildə “Ərimin ailəsi” (“Kocamın ailesi”) serialında da çəkilmişdi.

## QARDABANİDƏ İDMAN MEYDANÇALARININ BƏRPASI BAŞA ÇATDIRILIB



Bu günlərdə Qardabanidəki bir neçə idman meydançasının təmir-bərpa işləri başa çatdırılıb. Bu barədə Qardabani bələdiyyəsinin rəsmi səhifəsində məlumat verilib.

Məlumatda Qardabani şəhərində üç mini stadionun bərpa edildiyi bildirilir. Həyata keçirilən layihə çərçivəsində stadionlardakı infrastruktur yenilənib və meydançalara yeni süni örtük çəkilib.

Xatırladaq ki, təmir-bərpa işləri rayonun yerli büdcəsindən maliyyələşdirilib və layihənin ümumi dəyəri 76 999 lari təşkil edir.

## EKSPERTLƏR ƏN MƏRHƏMƏTSİZ MİLLƏTLƏRİ MÜƏYYƏNLƏŞDİRİBLƏR

Bir qrup psixoloq duyğulu və şəfqətli adamları aşkarlamaq üçün dünyanın 70-dən çox ölkəsinin sakinlərinin milli mentalitetinin qlobal araşdırmasını aparıb.



Araşdırma nəticəsində bəlli olub ki, ən şəfqətli insanlar Ekvador, Səudiyyə Ərəbistanı, Peru və Danimarkada yaşayırlar. Araşdırmaçılar Polşa, Litva, Estoniya və Bolqarıstan sakinlərini ən mərhəmətsiz insanlar hesab ediblər.

ABŞ sakinləri reytinqdə yeddinci olublar, Rusiya sakinləri isə özlərinin coğrafi qonşularından uzaq düşməyərək siyahıda sonuncu yeri tutublar.

Niyə belə nəticə alındığını izah edən tədqiqatçılar hal-hazırkı dövrün mənzərəsini yaratdıqlarını bildiriblər. Onların fikrincə, bir neçə on il bundan qabaq reytinq başqa cür görünə bilərdi.

Misal üçün son illər ərzində ABŞ-da valideynlərin uşaqların tərbiyəsinə, habelə köməyə ehtiyacı olan tanımadıqları adamlara münasibətləri dəyişib. Ölkə daxilində bir çox hadisə adamları birləşdirərək onların mərhəmət və başqalarının dərdinə şərik olmaq qabiliyyətlərini aydın şəkildə əks etdirir. Əksinə, siyasi, iqtisadi durumun pisləşməsi, günəşin altında öz yeri uğrunda mübarizə aparmağın gərəkliliyi adamları bir çox müsbət keyfiyyətdən məhrum edə bilər. Onlardan ötrü özlərinə və yaxınlarına qayğı göstərmək mühüm bir iş olsa da, bu dairədən kənardakı adamlara mərhəmətlə yanaşmaq mənasızlığa çevrilir.

## KİVİDƏN FAYDALANMAĞA DƏYƏR

Kivi kiçik bir meyvə olmasına baxmayaraq, faydaları çoxdur. Əsil vətəni Çindir. Kivinin faydaları ilə tanış olaq:

1. 100 qram kividə təxminən 98 milliqram C vitamini var. Kivini səhər yemək məsləhət görülür. Kivi immun sistemini möhkəmləndirir. Yüksək qan təzyiqi, allergiya və zökəmlə mübarizə aparır. C vitamini ən güclü anti-oksidant hesab olunur.

2. Stressi azaldır, əhval-ruhiyyəni yaxşılaşdırır.

3. Qəbizliyin dərmanıdır. Tərkibində çoxlu liflər olduğu üçün bağırsaqların hərəkətini tezləşdirir. Nəticədə qəbizliyi aradan qaldırır.

4. Bədəndə olan artıq mayeni dəf edir. Kivinin çox hissəsi sudan təşkil edildiyinə görə, kalorisi çox azdır. Onu yeyən insan toxluq hiss edir. Nəticədə bu meyvə arıqlamağa şərait yaradır.

5. Yeməyi yaxşı həzm etməyə, bədəndə olan proteinin tez bir zamanda həzm olmasına yardım edər. Nəticədə mədə ağrıları, qazlar, həzmsizlik azalır.

6. Qan dövranını yaxşılaşdırar, damarlarda tromblarıın əmələ gəlmə riskini azaldır.

7. Sümüklər və dişlər üçün çox faydalıdır.

8. Tərkibində C vitamini və fol turşusu çox olduğu üçün immun sistemini gücləndirir, orqanizmin infeksiyalara olan davamlılığını artırır.

9. Qan azlığı ilə mübarizə aparar. Tərkibində C vitamini çox olduğu üçün dəmirin cəzb etməsini gücləndirər.

10. Günəş şüalarından qoruyur. Günəşin ultra-bənövşəyi şüalarına qarşı həssaslığınız vardırsa, kivi yeməkdən faydalanın. Bu meyvədə olan lutein təbii filtr kimi dərinizi qoruyacaqdır.

## ÇİNGİZXANIN NƏSİHƏTLƏRİNİN SİRRİ ÇÖZÜLDÜ



Alimlər Çingizxanın Altay Respublikasının Milli Muzeyində saxlanılan “İdrakın açarı” nəsihətnaməsinin sirlərini çözməyi bacarıblar. Bu barədə muzeyin saytında məlumat verilib.

Filologiya elmləri doktoru İrina Nevskaya və Frankfurt-Mayn universitetinin filoloqu Xerlen Bold manuskriptin mətnini əski monqol dilindən tərcümə edərək əlyazmanın XIII-XIV yüzilliklərə aid olduğunu müəyyənləşdiriblər. “İdrakın açarı”nın müəllifliyi Çingizxana və onun iki davamçısına aid edilir. Bunu üç fərqli xəttin olması sübut edir.

Manuskript gənc nəslə müraciət edən nəsihətlərdən ibarətdir. Əlyazmada mərdlik və çalışqanlıq tərənnüm olunur.

Məlumatda əlyazmanın bir çox vərəqlərinin itdiyi vurğulanır. Alimlərin fikirlərinə görə, əlyazma əski monqol dilində çalışmalar üçün də lazım ola bilər, çünki onun səhifələrində əski monqol əlifbası və yazısı da təqdim olunur.

## DELFİNLƏR HAQQINDA YENİ FAKTLAR ORTAYA ÇIXIB



Florida ştatından olan amerikalı alimlər müəyyən ediblər ki, delfinlər bir-birilərini adları ilə çağırırlar.

Təbii ki, həmin adlar insan adına deyil, daha çox fit səsinə bənzəyirlər. Dəstənin hər bir üzvünün isə özünəməxsus nadir səs siqnalı var.

Tədqiqatçılar su məməlilərinin davranışlarını müşahidə edərək onların çıxardıqları hər bir səsi yazıblar. Məlum olub ki, hər bir fərd dəstənin digər üzvünün müraciətinə özünün həmin təkrarsız səs siqnalı vasitəsilə cavab verir. Alimlər güman edirlər ki, delfinlər dünyaya gəldikləri zaman anaları tərəfindən verilmiş adlara sahibdirlər. Dişi delfin öz balalarına müxtəlif siqnalların köməyi ilə adlar təyin edir. Qeyd etmək lazımdır ki, bir neçə müddət bundan öncə alimlər müəyyən etmişdilər ki, delfin və balina kimi su məməliləri öz növünün digər nümayəndəsinə qarşı əzab çəkə və dərdinə şərik ola bilirlər. Məsələn, sözügedən heyvanlar ölmüş üzvlərinin meyidlərindən ayrılmaq istəmirlər.

## CİDDƏDƏ DÜNYANIN ƏN AĞIR ZƏRGƏRLİK QARNİTURU YARADILIB



Səudiyyə Ərəbistanının Ciddə şəhərində hazırlanmış 33 kiloqram çəkisi olan qadın qızıl qarnituru “Ginnesin rekordlar kitabı”na daxil edilib. Bu barədə ölkədə nəşr edilən “Məkkə” qəzetinə “At-teyiba” zərgərlik zavodunun icraçı direktoru İsam əl-Əşrəfi məlumat verib.

RİA Novosti agentliyi xəbər verir ki, icraçı direktorun sözlərinə görə, nəhəng boyunbağı, qolbaq, sırğa və üzükdən ibarət qızıl qarniturun düzəldilməsi bir ilə başa gəlib. Bununla yanaşı, dizaynın işlənib hazırlanmasına yarım il vaxt sərf edilib.

Dünyanın ən ağır zərgərlik qarniturunun yaradılması üzərində 100 nəfər çalışıb. Onun qiyməti 6 milyon Səudiyyə rialı, başqa sözlə 1,5 milyon ABŞ dolları təşkil edir.

## BAŞSAĞLIĞI

Qardabani rayonun Kosalı ictimai məktəbinin müəllim və şagird kollektivi, eləcə də texniki heyət məktəbin təsərrüfat işləri üzrə koordinatoru

***Rauf Mahal oğlu Musayevin***

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Allah rəhmət eləsin!

**Təsisçi:**
*“Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı”*

***Redaktor*:**
**Afiq Muxtaroğlu**
***Yayım Direktoru*:**
**Hacı Bəkiroğlu**

***ÜNVAN:*** Qardabani şəh. Kolxoz küç, 4
***TEL:*** *(+995) 595 92 25 70*
*599 54 12 92*
***EMAİL:*** *yeni_yol@mail.ru*

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.